# Böyük ədiblərin yubileylərinə həsr olunmuş videoçarxlar hazırlanıb






















**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında həyata keçirilən "Yubileylər silsiləsi" layihəsi çərçivəsində XIX əsr Azərbaycan şairi, pedaqoq, maarifçi və tərcüməçi Seyid Əzim Şirvaninin 190 illik və XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ilə əlaqədar videoçarxlar hazırlanıb.**

Bu barədə qurumdan verilən məlumatda qeyd olunur ki, Seyid Əzim Şirvaninin 190 illik yubileyinə həsr olunmuş videoçarxda şairin həyatı və ədəbi yaradıcılığı, pedaqoji fəaliyyəti haqqında məlumat verilir. Qeyd olunur ki, S.Ə.Şirvani 1869-cu ildə Şamaxıda "Üsuli-cədid" məktəbini açıb və ömrünün sonuna qədər bu məktəbə rəhbərlik edib. Onun şagirdləri arasında böyük satirik şair M.Ə.Sabir, məşhur yazıçı və pedaqoq Sultan Məcid Qənizadə olub. Seyid Əzim Şirvaninin yazdığı hekayələr Qori seminariyasının "Vətən dili" dərsliyinə daxil edilib.

Videoçarxda izləyicilərə təqdim olunan maraqlı məlumatlardan biri də odur ki, 1874-cü ildə Şamaxıda yeni açılan məktəbdə Seyid Əzim Azərbaycan, fars dili və şəriət müəllimi təyin olunub. Seyid Əzim Şirvani maarif sahəsindəki xidmətlərinə görə 1886-cı ildə gümüş medalla təltif olunub. Bu sənədin əsli Azərbaycan SSRİ Daxili İşlər Nazirliyinin arxivində saxlanılır.

İzləyicilərə təqdim olunan maraqlı məlumatlardan biri də odur ki, 1920-ci ilə qədər S.Ə.Şirvaninin əsərlərinin 5 nəşri var idi: Tiflisdə (1895), Təbrizdə (1895-1897 və 1912), Bakıda (1902). 1920-ci ildən sonra S.Ə.Şirvaninin əsərləri tərcümə edilərək digər dillərdə də nəşr olundu.

Seyid Əzim Şamaxıdakı "Beytüs-səfa" ("Paklar evi") şairlər məclisinə də uzun illər rəhbərlik edib. Şair lirik qəzəllərində Füzuli ənənələrini davam etdirmiş, satirik şeir və təmsillərində insanları maarifə və mədəniyyətə çağırmışdır. Şair və alimlərdən M.M.Nəvvab, F.B.Köçərli, F.Qasımzadə, M.A.Dadaşzadə, H.Araslı onun şeir və qəzəllərinə yüksək qiymət veriblər. Videoçarxda şairin xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş bölmə var. Videoçarxda şairin bir neçə qəzəlləri və qəzəlinə yazılmış mahnı səsləndirilir.

Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə həsr olunmuş videoçarx Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu sözləri ilə başlayır: "İkinci bir Bəxtiyar Vahabzadə yoxdur. O, başqasına bənzəmir və onu heç kəs əvəz edə bilməz".

Videoçarxda Ulu Öndərin Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşünün fraqmenti təqdim olunur.

Şairin dərin lirizmi ilə səciyyələnən sözlərinə çoxsaylı mahnılar bəstələnib. Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı şeiri ilə başlayıb. "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri əks olunub. O, 1958-ci ildə yazdığı "Gülüstan" poemasında iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirib. B.Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi-publisist kitabın və yüzlərlə məqalənin, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir.

Videoçarxda Xalq şairinin bir sıra kitabları nümayiş olunur. Onun Azərbaycan və xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulan və müəllifinə geniş şöhrət gətirən pyesləri haqqında məlumat verilir. Görkəmli şairin 1960-2003-cü illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulan "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" pyesləri qeyd olunur.

Videoçarxda B.Vahabzadənin təltif və mükafatları da yer alır. Burada "Xatirəsi Azərbaycanda", "Xaricdə" bölmələri də var. Xalq şairinin Şəki şəhərindəki ev-muzeyi haqqında da məlumat verilir və muzeydəki bəzi eksponatlar nümayiş olunur.

Hər iki videoçarxda Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə Seyid Əzim Şirvaninin və Bəxtiyar Vahabzadənin əsərlərinin nəşr olunması qeyd edilir.

**M.MUSTAFA,**
**"Respublika".**

Respublika .- 2025.- 16 iyul (№ 144).- S.7.